# Xəzansız elmin yaşıl ömürlü akademiki



**Görkəmli elm xadimi, dünya şöhrətli bioloq, akademik Urxan Ələkbərovun ad-sanı çoxdan Azərbaycanın sərhədlərini aşmışdır. Biologiya elmi sahəsində böyük yeniliklərin, zəngin ixtiraların müəllifi olan Urxan müəllimi hər yerdə sadə, təvazökar alim, böyük vətənpərvər ziyalı kimi tanıyır və sevirlər. Onun rəhbərlik etdiyi Prezident yanında Dövlət İdarəçilik Akademiyasında çalışan elm adamları və tələbələr öz rektorlarının xatirini uca tutur, onunla rastlaşanda, üz-üzə gələndə böyük alimə olan əsl ehtiram və sevgilərini bildirirlər:**

- Salam, Urxan müəllim!

Akademikin əsl səmimiyyətlə, mehribanlıqla dolu siması işıqlanır, məhəbbət dolu baxışları salamlaşdığı adamlara o andaca sirayət edir.

Urxan Ələkbərovun elmi fəaliyyətinin əsas istiqamətləri və artıq qəbul edilmiş nailiyyətləri ətraf mühitin, onun təbii iqtisadi, sosial və siyasi komponentlərinin vahid əsas sistem kimi idarə edilməsi, habelə planlaşdırılması, tənzimlənməsi ilə bağlıdır. Urxan Ələkbərov elmi yaradıcılığında davamlı inkişafın məqsədi olan ekoloji sivilizasiya konsepsiyasının ilk müəllifi kimi tanınır. Biologiya elmində həmişə əsas və önəmli aktuallıq kəsb edən biomüxtəlifliyin mühafizəsi və ona bağlı inkişaf edən genetik sistemlərin davamlılığı akademik Urxan Ələkbərovun doktorluq dissertasiyasının tərkib hissəsi kimi artıq özünü təsdiq etmiş, elm dünyasında öz layiqli yerini tutmuşdur. Həm də tanınmış akademikin əsərlərində antimumagen, antikartisinogen və geropratektive vasitələrinin kəşf edilməsi və onların istifadəsi yeni elmi konsepsiyaların tətbiqi, tədrisi dövrün aktual problemləri ilə birbaşa səsləşir. Ona görə də həmin tapıntılar elmdə öz geniş əks-sədası ilə görkəmli akademikə böyük şöhrət gətirmişdir. Müasir sivilizasiyanın ən yeni hüdudlara və hədəflərə, yəni ekoloji sivilizasiyaya rəğmən hazır olması böyük alimin axtarışlarında yeni əmsal kimi öz bəhrəsini göstərməkdədir.

İstedadlı professor Urxan Ələkbərovun ən çox diqqəti cəlb edən əsərlərindən biri də, hələ 1992-ci ildə çap edilmiş "Sağlamlıq və ətraf mühitin keyfiyyətini qiymətləndirmək, həmçinin onu idarə etmək üçün yeni sistem" adlanır. Məlum olduğu kimi, bəşəriyyətin sağlam inkişafı üçün ətraf mühitin böyük və başlıca amili olan təbiəti sevmək, qorumaq, bugünümüzün və gələcəyimizin əsas və ümdə vəzifəsi sayılıb. Böyük alimin bu ümumbəşəri əsəri həm geniş məlumat potensialına malik, həm də sosial-iqtisadi baxımdan insana, onun sağlamlığına yönəlmiş, ən başlıcası isə genetik indikatorlara bilavasitə əsaslanan yeni ekoloji bir monitoriq sisteminin elmi araşdırmasıdır. Ümumiyyətlə, U.Ələkbərovun bütün elmi fəlsəfi, siyasi, sosial, iqtisadi çalarlar üzərində yazılmış dolğun məzmunlu əsərlərində insan amili, ona üzvü surətdə bağlı olan ekoloji təhlükəsizlik və həmin amili təmin edən, keşiyində duran elmi kompleks sisteminin hazırlanması əsas sahələrdən birini təşkil edir. Yazımın əvvəlində Urxan Ələkbərovun elmi araşdırmalarının ümumbəşəri səpkidə yazılmasını təsadüfən qeyd etmədim. Çünki onun üzərində illərlə işləyib səmərəli fəaliyyət göstərdiyi mövzular, - birinci insan sağlamlığı, ətraf mühit, ekoloji təhlükəsizlik, biomüxtəlifliyin lazımınca mühafizəsi məhz İnsan, Dövr, Dünya amilləri ilə bağlıdır. Ona görə də akademikin beynəlxalq aləmdə elmi nüfuzu gündən-günə artmaqdadır. Alimin əsərlərinə edilən çoxsaylı istinadlar, kitablarından gətirilən tutarlı sitatlar bir sıra beynəlxalq mənbələrdə dərslik və dərs vəsaitlərində durmadan işlənməkdədir. Təsadüfi deyil ki, onun beynəlxalq inkişaf təşkilatlarının rəsmiləri üçün məruzə, seminar və təlimatları Avropa Yenidənqurma İnkişaf və İnkişaf Bankı(London), BMT-nin Baş Qərargahı (Nyu York), Dünya Bankı (Vaşinqton), Ətraf mühit üzrə parlament komissiyaları və beynəlxalq şirkətlər (Azərbaycan, BÖYÜK Britaniya, Norveç, Sloveniya, Rusiya, Fransa) uğurla işlədilir. Azərbaycan elminə baş ucalığı və şöhrət gətirən akademik Urxan Ələkbərov hazırda rektor kimi məsul bir vəzifəni ləyaqətlə yerinə yetirir. AMEA-nın həqiqi üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının üzvüdür. Hamımıza, bütün Azərbaycan elminə qürur vericidir ki, Azərbaycan alimi YUNESCO-nun Azərbaycan Milli MaB Komitəsinin sədridir. Elm və təhsil sahəsində səmərəli fəaliyyətinə və Azərbaycan Respublikasının ictimai-siyasi həyatında aktiv fəaliyyətinə görə "Şərəf Nişanı" və "Şöhrət" ordenləri ilə təltif olunan Urxan Ələkbərov ölkəmizdə və xaricdə çap olunan 320-dən çox elmi məqalənin, 34-dən çox kitabın müəllifidir. O, 22 fəlsəfə doktoru, beş elmlər doktoru yetişdirmişdir. Elm yollarında yüksək nailiyyətlər, uca zirvələr fəth etmiş dünya şöhrətli alim, böyük vətənpərvər insan, "Yaşıl" təfəkkür, - demoqrafiya, istehlak mədəniyyəti və "yaşıl" iqtisadiyyata əsaslanan ekoloji sivilizasiya konsepsiyasının ilk müəllifi olan akademik Urxan Ələkbərova "İki sahil" kollektivi olaraq, bahar boyalı, xəzan görməyən həmişəyaşıl bir ömür, elm yollarında və şəxsi həyatında isə yorulmaz, bitməz-tükənməz həyat eşqi arzulayırıq.

**Tahir Məmmədov,**
Siyasi elmlər üzrə fəlsəfə doktoru